*Gülay BAĞIROVA*

# MƏTBUATŞÜNASLIQ TARİXİMİZDƏN: UĞURLAR, QÜSURLAR

**Ключевые слова**: идеология, общество, политическая среда, социальная проблема, методологическая литературная критика

**Keywords**: ideology, society, political environment, social problem, methodological literary criticism

## РЕЗЮМЕ

Исторический опыт азербайджанской печати, прошедшей тернистый путь развития в конце XIX-начале XX века, вызывает большой интерес и имеет огромное значение в исследованиях современного независимого периода. История печати Азербайджана всегда находились в центре внимания. Современность анализируется как эстетическая категория в драмах связанных с историческими личностями .

## SUMMARY

At the end of XIX and the beginning of XX century the historical experience of Azerbaijani press, last thorny development way caused a great interest and had a great importance in studies of the modern independent period. Although Soviet periodic press already functioned in the 70 s of the XX century, it cannot be denied that this period had its peculiar importance. So, both, its positive and negative sides raise interest. It should first be noted that the network of newspapers and magazines expanded during this very period? Press enriched at the expense of new means of Mass Media

Mətbuat tarixi Azərbaycan filologiyasının yeni sahələrindən olsa da, 19-cu və 20-ci yüzilliyin mətbuat tarixinə aid çox sayda elmi-publisistik məqalələr, monoqrafiyalar, dərsliklər, dərs vəsaitləri, bədii-elmi əsərlər yazılmışdır. Lakin uzun illər - sovet dövründə Azərbaycan mətbuatının bir sahəsini təşkil edən Cənubi Azərbaycan və mühacirət mətbuatı tarixinin araşdırılmasına ümumiyyətlə toxunulmamışdır. Çar Rusiyası dövründə ayrı-ayrı xadimlər müəyyən təşəbbüslər göstərsələr də bu işi məqbul hesab etmək olmaz: mətbuat tarixi həmin dövrdə sistemli və ardıcıl öyrənilməmişdir.

Bu gün Cənubi Azərbaycan və mühacirət mətbuatşünaslıq tariximizin deyil, bütövlükdə mətbuatşünaslıq tariximizin hərtərəfli, sistemli, geniş, obyektiv araşdırılmasına ehtiyac duyulur.

Amma bu o demək deyil ki, mətbuat tarixinin araşdırılması istiqamətində heç bir iş görülməyib. Əksinə çox mühüm işlər görülmüş və bu gün də davam etməkdədir. Doğrudur, onların böyük əksəriyyəti sovet dövrünün ideoloji "qayda-qanun"larına uyğun yazıldığına görə hadisələr, faktlar eyni dəqiqliklə, yüksək elmi, obyektiv səviyyədə şərh olunmamış, düzgün, dəqiq ümumiləşdirilmələr aparılmamışdır. Amma bu bizə əsas vermir ki, həmin əsərlərin mətbuatşünaslıq tariximizin öyrənilməsi üçün əhəmiyyətini inkar edək - Qətiyyən. Əksinə, onlardan bəhrələnməklə bu istiqamətdə axtarışlar aparılmalıdır. Mətbuat tarixinə dair mövcud ədəbiyyatı dəyərləndirmək üçün onların qələmə alındığı dövrü, mühiti nəzərə almaq çox vacibdir.

Sovet dövründə 1920-ci ilin ortalarından (xüsusən də 1925-ci ildə milli mətbuatımızın 50 illiyi münasibətilə) başlayaraq qəzet və jurnalların məzmunu, dili, ideya istiqaməti, yazarlarının fəaliyyəti tədqiqata cəlb edildi. Təbii ki, bu tədqiqatlarda "sovet rejimi və ideologiyasının tələblərindən doğan bir qərəzlilik" (11, 4) açıq şəkildə özünü biruzə verdi. Bu qərəzlilikdə "bolşevik və inqilabi-demokratik mətbuat"ın fəaliyyəti həddən ziyadə şişirdildi, ölkənin bütün nailiyyətləri onların adı ilə bağlandı: "Bolşevik və demokratik mətbuat Azərbaycan tarixinə şanlı səhifələr yazdı" (9, 319). Milli ruhlu

mətbuatımıza isə "burjua, mürtəce" damğası vurularaq "Azərbaycan xalqının azadlıq hərəkatına, zəngin mədəni sərvətinə, doğma ana dilinə düşmən münasibət bəsləyən, çarizmə və burjuaziyaya nökərçilik edən mürtəce ideyalar yayan" (9, 319) mətbuat kimi təqdim edilirdi.

Amma həmin tədqiqat əsərlərində Azərbaycan mətbuatşünaslığının yaranması tarixi, keçdiyi inkişaf yolu öz əksini tapmışdır. Ona görə bu gün onları "tənqid, təftiş etmək fikri ən azı nadanlıq olardı. Söylənilənləri yenidən "ifşa" etmək metodunu seçmək məqsədəmüvafiq deyil. Sadəcə olaraq predmetləri-həm qəzet və jurnalları, həm də onlara dair tədqiqat materiallarını real, doğru, dürüst, obyektiv qiymətləndirmək, dəyərləndirmək lazımdır" (11, 256).

1950-ci ildən sonra "respublikada ictimai elmlərin tərəqqisi, Azərbaycan ədəbiyyatı və mətbuatı tarixinə dair ümumiləşdirici əsərlərin və monoqrafiyaların yaradılmağa başlaması" (10,7) bir çox milli ruhlu mətbu orqanlarımız haqqında saysız-hesabsız məqalələr, əsərlər, xatirələr yazılmasına səbəb oldu.

1959-cu ilin yanvarında Azərbaycan Kommunist Partiyasının növbədənkənar XXIII qurultayı keçirilib. Qurultayın qətnaməsində deyilir ki: "Azərbaycan partiya mətbuatı hərəkatın yeni mərhələsinə-kommunizmə keçid mərhələsinə qədəm qoyur. Bu mərhələdə partiya mətbuatı daha fəal olmalıdır" (6, 17).

Tədqiqat əsərlərini nəzərdən keçirərkən, doğrudan da qurultaydan sonrakı mərhələnin məhsuldar olduğunun şahidi oluruq. Amma yenə də "klassik irsə leninçi münasibətin sabitləşməsi" (5, 5) açıq-aydın özünü biruzə verir.

1960-cı ildə Azərbaycan SSR EA nəşriyyatında görkəmli alimlərimiz Əziz Mirəhmədov, Kamal Talıbzadə və Əli Sultanlının redaktorluğu ilə "Azərbaycan ədəbiyyatı tarixi" (3 clddə 2 cild) çapa hazırlanıb. Təəssüflər ki, bu fundamental əsərdə də 1940-50-ci illərdə çap edilən əsərlərdəki ideoloji yanlışlıqlar eynilə davam etdirilib. "Bolşevik mətbuatının şanlı işi bütün Azərbaycan mədəniyyəti və ədəbiyyatı üçün xalqa xidmətin parlaq nümunəsi" (1, 396) kimi təqdim edilib. Xalqın milli şüurunun oyanmasında, azadlığının qazanıl-

masında misilsiz rol oynayan milli ruhlu mətbuatımız "satqın", "burjua mətbuatı" (1, 395), "burjuaziyanın mənafeyini müdafiə edən" (1, 409), yazarları isə "Azərbaycan mətbuatının inkişafına mane olan millətçi, mürtəce ünsürlər"(1, 399) adlandırılaraq təhqir edilirdilər.

20-ci yüzilliyin 70 ildən artıq dövrü sovet mətbuatının fəaliyyət göstərdiyi illərə təsadüf etsə də bu dövrün də xüsusi yeri vardır. Bu da bir faktdır ki, sovet gerçəkliyində yaşadığımız yetmiş ildə milli düşüncənin yaranmasında, yaşanmasında və təbliğində ədəbiyyatımızla yanaşı, mətbuatımızın da böyük rolu olub. Xüsusən də son "30 il (1960-1980-cı illər) bu mənada birmənalı təsdiq olunsa da, əvvəlki 40 ilin də üstündən keçmək düz olmaz" (4, 487). Doğrudur, Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra mətbuatımızın inkişafı əsasən partiyalı mövqe ilə bağlı olub. "Azərbaycan mətbuatı kommunist ideologiyasının güclü təsiri altında fəaliyyət göstərsə də" (13, 9), 1960-cı illərin əvvəllərindən o öz milli varlığını qoruyub saxlamağa cəhd göstərmişdir. Bu mətbuatın tədqiqində də özünü biruzə vermiş və 1960-ci illərin sonu, 1970-ci illərin əvvəllərindən Azərbaycan mətbuatşünaslığının inkişafında yeni bir mərhələnin başlanmasına səbəb olmuşdur. Cənub mövzusu, Azərbaycanın bütövlüyü, ana dilinin geniş təbliği və s. mövzular ədəbiyyatdan əvvəl mətbuatda özünü əks etdirdi və çap edilən məqalələr, əsərlər də buna sübutdur.

Odur ki, indi həm dövrün mənfi və müsbət cəhətlərindən qısa da olsa söhbət açmaq yerinə düşərdi. İlk olaraq onu qeyd edək ki, məhz bu illərdə ölkəmizdə qəzet və jurnalların şəbəkəsi genişlənmiş, mətbuat kütləvi informasiya vasitələrinin yeni növləri hesabına zənginləşmişdir. Jurnalistikanın çeşidli növləri meydana çıxmışdır. Mətbuat daha çox partiyalı, sinifli olsa da, vətənpərvər jurnalistlərimiz öz qələmlərini xalqın xidmətində işlətməyə cəhd etmişlər və bu yolda təqiblərə də məruz qalmışlar. 1920-ci ilin aprel işğalından 1950-cu ilin sonuna kimi olan dövr ərzində baş verən hadisələr buna bir daha sübutdur.

"Mətbuat əsasən sovet təbliğat maşınının "təkərciyinə və vintciyinə" çevrilsə də, bu heç də o demək deyil ki, sovet dönəmində

Azərbaycan jurnalistikası heç nə qazanmamış və heç nəyə nail olmamışdır. Məsələn, mətbuatın kütləviliyi, onun dilinin, üslubunun daha da təkmilləşməsi, peşə sənətkarlığının artırılması və s. Lakin kəmiyyət göstəriciləri etibarı ilə müəyyən uğurlar əldə etsə də, jurnalistikanın funksiyaları, prinsipləri, dəyərləri baxımından geriləmələr də olmuşdur. Bu da ondan irəli gəlirdi ki, Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra mətbuatın inkişafı daha çox partiyalı mövqe ilə bağlı idi.

Amma "Azərbaycan gəncləri", "Molodyoj Azerbaydjana" (1919), "Bakı", "Baku" (1958) kimi tanınmış mətbuat orqanlarında kommunist ideologiyası ilə bağlı məsələlərlə yanaşı, respublikanın iqtisadi, elmi, mədəni inkişafının problemləri də öz əksini tapırdı. Xalqın həyatının işıqlandırılmasında, ideoloji buxovların mövcudluğuna baxmayaraq, öz səhifələrində qismən də olsa müxalif fikrə də yer verən, o dövr üçün doğrudan da vətənpərvər ruhlu məqalələr dərc edən mətbuat orqanlarının milli şüurun və özünüdərkin formalaşdırılmasında böyük rolu olmuşdur.

Bu qəzetlərin xalqımızın dil, ədəbiyyat və mədəniyyətinə həsr etdiyi, azərbaycançılıq ideyasına xidmət edən yazıları (onlar çox az olsa da var) bu gün də aktual olaraq qalır və totalitar rejim şəraitində belə Azərbaycan jurnalistikasının mövqeyini nümayiş etdirib. Sovet hakimiyyəti illərində Azərbaycan mətbuatı kommunist ideologiyasının güclü təsiri altında fəaliyyət göstərsə də, nisbətən öz milli varlığını qoruyub saxlamağa çalışmış, əldə etdiyi zəngin ənənələri davam etdirərək respublikanın ictimai-siyasi həyatında fəal rol oynamışdır. Az da olsa milliliyi, xəlqiliyi qoruyub saxlamağa çağırış var idi. Məsələn, Səməd Vurğun "Biz və tarixi keçmişimiz" adlı məqaləsində yazırdı: "Tarixin uzaqlarına getdiyimiz zamanda belə, yenə öz əsrimizin övladı olduğumuzu unutmamalıyıq" (12, 346)

Məhz bu dövrdə mətbuatımızın coğrafiyası və ifadə vasitələri genişlənərək respublikanın ictimai-siyasi həyatının demək olar ki, bütün sahələrini əhatə etmişdir. 1970-80-ci illərdə "Azərbaycan tənqidində ideya-estetik təhlil bütövlüyünə meyl güclü olmuş, müa-

sir bədii fikrin hərəkət və ritmində duyulan ən yeni keyfiyyətləri izləmək, təhlil və qiymətləndirmək əsas yer tutmuşdur" (4, 79).

Doğrudur, 1960-70-ci illərdə sosializm xeyli dərəcədə zəifləsə də mövcudluğunu qoruyub saxlayırdı. "Ölkənin siyasi olimpində və milli respublikalarda gedən proseslər ona müəyyən zərbə vursa da, hələ onu qoruyub saxlayan siyasi sistem qalırdı" (3, 439). 1972-ci ildə Sov.İKP Mərkəzi Komitəsinin "İctimai elmləri inkişaf etdirmək, onun kommunizm quruculuğundakı rolunu artırmaq tədbirləri haqqında" (2, 16) qərarı humanitar elmlərin həm inkişafına, həm də tədqiqinə təkan verdi. "1960-cı illərin sonu 70-ci illərin əvvəllərindən başlayaraq Azərbaycan mətbuat tarixinin tədqiqi yeni mərhələyə" (11, 255) qədəm qoydu. Həmin dövrün tədqiqi həm ayrı-ayrı yazarların həyat və yaradıcılığının öyrənilməsinə, həm də ədəbi mühitin problem məsələlərinin tədqiqinə həsr edilib. Amma hələ də "milli həyatla inqilabi düşüncə arasında təzad problemi, iki zidd siyasi ideologiyanın müsavat və bolşevizmin-birincinin əksinqilabçı, soyğunçu, ikincinin isə əksinə, sosial rifah və "milli azadlıq" (8, 15) vəd edən quruluş kimi təbliğ edən əsərlər yazılmaqda idi. Çox təəssüf ki, bu hal "akademik səciyyəli tədqiqatlarda, habelə bir çox kollektiv monoqrafiyalarda", (7, 10) dərsliklərdə, dərs vəsaitlərində davam edirdi.

## ƏDƏBİYYAT


1. Azərbaycan ədəbiyyatı tarixi (XIX əsrin əvvəllərindən 1917-ci ilə qədər) 3 clddə, II c. Bakı: Azərbaycan SSR EA nəşriyyatı, 1960, 903 s.
2. Azərbaycan sovet ədəbbiyyatşünaslığı (1920-1975). Biblioqrafiya. Bakı: Elm, 1983, 940 s.
3. Əhmədov B. XX yüzil Azərbaycan ədəbiyyatı: mərhələlər, istiqamətlər, problemlər. Bakı: Elm və təhsil, 2015, 550 s.
4. Humanitar elmlərin müasir durumu və ədəbiyyatşünaslığın nəzəri-metodoloji məsələləri. (Beynəlxalq elmi konfransın materialları. Bakı: Elm, 2010, 553 s.

5. Məmmədli Q. Cavid ömrü boyu. Bakı: Yazıçı, 1984, 296 s.
6. Məmmədov Ə. Mətbuat və kütlələrin əmək yarışı. Bakı: Azərnəşr, 1968, 121 s.
7. Məmmədov X. Azərbaycan ədəbi tənqidi XIX-XX əsrlərin hüdudunda. Bakı: 1999, 145 s.
8. Məmmədova S. Azərbaycan Cümhuriyyətinin bədii nəsrdə təcəssümü. Fil. elm. nam. dis. Avtoreferatı. Bakı: 2010, 27 s.
9. Mirəhmədov Ə. Azərbaycan ədəbiyyatına dair tədqiqatlar. Bakı: Elm, 1983, 319 s.
10. "Molla Nəsrəddin" 10 clddə, I. c. (1906-1907). Bakı: Azərnəşr, 1996, 712 s.
11. Tahirli A. Sözlə yarananlar, sözü yaşadanlar. Bakı: Əbilov, Zeynalov və oğulları, 2011, 305 s.
12. Vurğun S. Əsərləri. V cild. Bakı: Maarif, 1960, 590 s.
13. "Əkinçi"dən "Həyat"a. Xüsusi buraxlış. Vakı: 2000, 199 s.